


# Bir cümləlik hekayələr

**_Tural Turan_**

***

*O, rəfiqəsinin, mən də dostumun bəxt üzüyünü iki-üç saatlıq borc alıb nişanlandıq.*

***

*Böyüyəndə anladıq ki, sən demə, uşaq olanda qorxumuzdan kəndimizdəki bütün şikəst qızlara bacı gözü ilə baxırmışıq...*

***

*Mən dünyamı dəyişəndən sonra da insan öldürmək həvəsinə düşsəniz, gəlib baş daşımı güllələyərsiniz.*

***

*İnanmırsınızsa gedib yoxlayın, bütün dilənçilərin nəbzi ovuclarında vurur.*

***

*İlk qonorarımla atama alışqan, anama ətir, bacıma corab, yazıçı olmaq istəyən qardaşıma saat və qələm alıb qəbristana – ailə məzarlığımıza üz tutdum...*

***

*Şair Temir Alpını– tanrını yox, onu yaradanları yox eləmək lazımdı – açıqlamasından sonra evinin qarşısında, yenicə yeriməyə başlayan qızının gözləri önündəcə ağzından güllələmişdilər.*

***

*Sürünü bazara çıxartma, qoyunları satsan torpaqlarımızı itirəcəyik – deyən atam məni fikrimdən daşındırmaq üçün önümdə diz çöküb ağlamağa başladı.*

***

*İyirmicə qəpiyə yeddi yaşlı qızın göz yaşları satılır...*